KRED
№37-38 (1167-1168) 03 noyabr 2023-cü il



# BALAYAR SADİQİN GÜNAHI



*(esse etüdlər)*

Eşitdim Balayar xəstələnib... necə yəni...
İlin , günün bu vaxtında nə xəstələnmək...
Esse etüdləri təzədən oxudum...
Bundan üstün dua tapmadım...
Mən istedadların bir padşahını tanıyıram...Tanrı gərək ona qıymasın

* * *

Düşüncənin istedadda görünən işığı...
Söykə göyün yeddinci qatına
düşüncənin gətirdiyi pilləkəni...
Əsas cümllələrin forması görkəmi, yaraşığı...
Qalanı şərtidir... min könül atına...
Kimsənin əlinin yetmədiyi yalmanı əlində möhkəm saxla

...onsuz da allahın nəzərində bağışlanandır şair günahı
Ah... istedadlar padşahı...
Sən elə əvvəldən günahsız idin...
Amma yox...
Sevirdin...
Hə sevgidə bir az....
???
Birisi məndən yazdığı şikayəti belə başlayır
"Bu Əli Rza Xələfli kimdisə..."
Bu da belə daşlayır...
Ancaq qorxuram;
Mənim yerim çox qəlbi deyil,
o özü çox dərədədir
qorxuram daşlar qayıdıb özünün başına düşər...
???
Balayar hər gün şeir yazır...
Özü də hər şeirlə çıxır allahın yanına
Qəbulda növbə gözləmir...
Axı allah bilir ki gələn sıradan kimsə deyil
İstedadlar padşahı...
???
Biri mənə dedi ki,
sən hər gün yazırsan
Dedim günah məndə deyil ki ,
sən yaza bilmirsən
Bəs kimdədir...
Deyəsən hərif çaşdı...

Bala yar Sadiqdən soruş
Yenə o bilər, hər gün allahın yanında olur...
Dedim.. daha daşdı , başdı...
???
Bir dostuma dedim
Balayar haqda yazdığım qeydlə
Şərhin poetik notları kitabımda
Çox yaxşı alınıb...

Kefi pozuldu...

Səhəri gün mənə dedi ki
filankəs deyir
Əlirza nə çox yazır...
Girməkdi...
Doğrusu söz mənə qəribə gəldi...
Ancaq bir şeyi dəqiq bildim
O dediyi filankəs elə özüdür...
Dünən Balayar haqda danışanda necə sancılandığını görmüşdüm...
???
Balayar Sadiq öz işindədir...
Hər hürənə dönsə
yoldan qalar...
Doğrusu mənim də işim az deyil..
Ah bu günahlar...
olsun... nə olar, olar...

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ***